# Əhəmiyyətli uçot siyasəti və izahlı qeydlər.

## 1.Giriş.

31 dekabr 2017-ci il üçün tamamlanan il üzrə "siyasi partiyada sadələşdirilmiş mühasibat uçotunun aparılması Qaydaları"na uyğun olaraq Vəhdət Partiyası illik maliyyə hesabatını Mərkəzi Seçki Komissiyasına təqdim edir.

**2.Partiya haqqında umumi məlumat:**

Partiya Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasında 11.12.1998-ci il tarixli, 34 saylı qərarına əsasən Şəhadətnamə ilə qeydiyyata alınmışdır.
Mülkiyyət növü- Xüsusi
Qanuni təmsilçisi Sədr –Kərimli Tahir Zayıdağa oğlu,
Partiyaya Bakı şəhəri Vergilər Departamenti tərəfindən 01.03.2013-cü il tarixində 1701456971 saylı VÖEN Şəhadətnamə verilmişdir.

Vəhdət Partiyasının əsas məqsədi Azərbaycan Respublikasının müstəqilliyini müdafiə edən, bütöv, güclü, demokratik və hüquqi dövlət qurmaq uğrunda Dövlət Bayrağının ideoloji zəmini əsasında Azərbaycançılıq ideyasını üstün tutan şəxslərin siyasi təşkilatıdır.
Vəhdət Partiyası qarşıya qoyduğu məqsədə Beynəlxalq Hüquq Normaları və Azərbaycan Respublikasının Əsas Qanunu çərçivəsində demokratik yollarla nail olmağı özünün əsas vəzifəsi sayır.
Vəhdət Partiyas ı Azərbaycan dövlətinin suveren hüquqlarını hər hansı bir təcavüzdən qorumaq uğrunda mübarizə aparır və Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə hörmət edən bütün ölkələrlə dostluq şəraitində yaşamaq, onlarla hərtərəfli və qarşılıqlı siyasi, iqtisadi və elmi-mədəni əlaqələrin inkişaf etdirilməsi prinsiplərini əsas götürür.

**3.Partiyanın hüquqi ünvanı:**

Hüquqi ünvan – Bakı şəhəri, Z.Əliyeva küçəsi,ev-23, 52/54
Faktiki ünvan- Bakı şəhəri Ə.Quliyev küçəsi-69

**4.Əməliyyat valyutası**

Hazırki maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Manatı (AZN) ilə ifadə olunmuşdur.

**5.Uçot siyasətinin təqdimatı**

Uçot siyasətinin bu maliyyə hesabatının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinaqeydləri edilməmişdirsə, göstərilən uşot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

**6.Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları.**

Paptiya mühasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparılır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunveriçiliyi əsasında hazırlanmışdır.Bu maliyyə hesabatlarında aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir. Maliyyə hesabatları hazırlanarkən mühasibat uçotunun hesablama metodu tətbiq olunmaqla aktivlər ilkin dəyər uçot prinsipinə əsaslanmışdır.

**7.Torpaq, tikili və avadanlıqlar ( əsas vəsaitlər)**

Torpaq, tikili və avadanlıqlar elə aktivlərdir ki, inzibati məqsədlər və təchizatında istismar edilir və ya gələcəkdə icarəyə verilmək məqsədlər üçün istifadə edilir;
-bir dövrdən (12 aydan) artıq dövr ərzində istifadə edilməsı gözlənilir.
Bu uzunmüddətli aktivlər əldə edilərkən ödənilən dəyər əsasında tanınır.

**8.Amortizasiya**

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır.
Bütün digər vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin qalıq dəyərinə vurmaqla həyata keçirilir. Faydalı istismar müddəti və ya illik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir.
-binalar vı qurğular -20 il və ya illik 7%-dək;
-maşın vı avadanlıq – 5 il və ya illik 25%-dək;
-nəqliyyat vasitələri – 5 il və ya illik 25%-dək;
-sair əsas vəsaitlər- 5 il və ya illik 20%-dək (ötürücü qurğular)
Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təsbit edilir.
Əsas vəsaitlərin xaric olmasından mənfəət və zərərlər maliyyə fəaliyyətinin nəticələri haqqında əks etdirilir.

## 9.Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir.

## 10.Kreditor və borclar

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır. Kreditlər və borclar partiya tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətindən ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüquqi olması halları istisna olmaqla, qısamüddətli öhdəlikləri kimi təsnifləşdirilir.

## 11.Gəlirin tanınması

Gəlir aktivlərin tanınması və öhdəliklərin azalması ilə bağlı iqtisadi səmərənin artımının baş verdiyi və bu artımın etibarlı səviyyədə qiymətləndirilməsi mümkün olduğu hallarda və gəlir tanınma meyarına uyğun olaraq tanındıqdan və qiymətləndirildikdən sonra uçota alınmaqla, təşkilatın maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda əks etdirilir.
Əsas əməliyyat gəliri dövlət büdcəsindən ayrılan vəsaitlər, digər alınmış yardımlardan ibarət olduğundan vergiyə cəlb olunmamışdır.Digər vergiyə cılb olunan gəlirlər isə hesablama metodu əsasında tanınır və tanınma alıcı ilə müqavilənin bağlandığı andan başlanır. Əsas əməliyyat gəliri bütün vergilər çıxıldıqdan sonra qalan gəlirlərdir.

## 12.Xərclərin tanınması

Partiiyada xərclər lahiyələr (tərtib olunan büdcələr) əsasında alınan və lahiyə (büdcə) çərçivəsində lahiyələrin büdcələri əsasında ödənilən zamanı tanınacaqdır. Yəni layihələrdən vəsaitlər daxil ola bilər, amma, layihə icra olunmasa həmin alınan vəsaitlər xərc kimi tanına bilməz.

## 13.Torpaq, tikili və avadanlıqlar

| Məzmun | 31.12.2017 | | | 31.12.2016 |
|---|---|---|---|---|
| 01 yanvar 2017-cı il tarixinə ilkin dəyər | 665,0 | | | 0,0 |
| Yığılmış amortizasiya | 133,0 | | | 0,0 |
| 01 yanvar 2017-cı il tarixinə balans dəyəri | 532,0 | | | 0,0 |
| Daxilolmalar | 19422,0 | | | 665,0 |
| Xaricolmalar | 0,0 | | | 0,0 |

| | | | | |
|---|---|---|---|---|
| Amortizasiya ayırmaları | 2229,66 | | | 133,0 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | 0,0 | | | 0,0 |
| 31 dekabr 2017-cı il tarixinə ilkin dəyər | 2008,0 | | | 665,0 |
| Yığılmış amortizasiya | 2362,66 | | | 133,0 |
| 31 dekabr 2017-cı il tarixinə balans dəyəri | 17724,34 | | | 532,0 |

**14.Pul vəsaitləri və onların ekvivalentləri**

| Göstəricilər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|
| Kassada nağd pul vəsaitləri | 0,0 | 0,0 |
| Milli valyutada bank hesabı | 96.48 | 0,0 |
| YEKUNU | 0,0 | 0,0 |

**15.Sair qısamüddətli aktivlər**

| Göstəricilər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|
| Vergi aktivi (vergilər üzrə artıq ödəmə) | 0.0 | 1846.75 |
| YEKUNU | 0.0 | 1846.75 |

**16.Ehtiyat fondu**

| Göstəricilər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|
| Əsas vəsaitlərin daxilolmalar. yaranan əlavə kapital | 0,0 | 1283.21 |
| YEKUNU | 0,0 | 1283.21 |

**17.Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)**

| Göstəricilər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|
| Hesabat gövrünün mənfəəti | 0,0 | 0,0 |
| YEKUNU | 0,0 | 0,0 |

**18.Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər**

| Göstəricilər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|
| Sosial sığorta haqqı üzrə öhdəliklər | 402,60 | 409.26 |
| YEKUNU | 402,60 | 409.26 |

**19.Qısa müddətli debitor borcları**

| Göstəricilər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|
| Qısa müddətli kreditor borcları (icarə haqqı) | 0,0 | 686.28 |
| YEKUNU | 0,0 | 686.28 |

20.Gəlirlər

| Göstəricilər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|
| Dövlət büdcəsindən (maliyyə nazirliyi) daxil olan vəsaitlər | 98039,20 | 98214.29 |
| YEKUNU | 98039,20 | 98214.29 |

21.Xərclər

| Göstəricilər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|
| **1.Siyasi partiyaların saxlanmasına və informasiya təminatına çəkilən xərclər** | | |
| -əmək haqqı | 19925,73 | 23662,21 |
| -sosial sığorta ayırmaları 22% | 5316,68 | 5205,68 |
| -icarə haqqı | 9480,0 | 18465,0 |
| -ofisin təmiri xərcləri | 0.0 | 600,0 |
| -informasiya və internet xərcləri | 240,0 | 240,0 |
| -rabitə xərcləri | 91,20 | 84,0 |
| -elektrik enerjisi xərcləri | 203,58 | 300,0 |
| -kommunal xərcləri | 98,0 | 136,0 |
| -yanacaq və sürtgü materialları | 6435,0 | 5512,0 |
| -kompüterin alınması | 1122,0 | 665,0 |
| -fotoaparatın alınması | 300,0 | |
| dəftərxanaxərcləri | 2328,12 | 706,45 |
| -notariat xərcləri | 0,0 | 260,0 |
| -çap işləri | 345,0 | |
| -plastik kartlar üçün çəkilən xərclər | 120,0 | 144,0 |
| -audit xidməti | 1000,0 | 300,0 |
| -nəqliyyatın təmiri | 4168,0 | 2587,57 |
| -avtomobilin sığortalnması | 210,0 | |
| -bank xidməti xərcləri | 519,21 | 606,38 |
| -sadələşdirilmiş vergi 1% | 730,50 | 0,0 |
| -gəlir vergisi 14% | 196,70 | 0,0 |
| -ödəmə mənbəyindən tutulan gəlir vergisi | 348,50 | 0,0 |
| -avtomobilin müqavilə yolu ilə alınması | 8250,0 | 0,0 |
| -partiya daxili tədbirlərin təşkili xərcləri | 28194,50 | 36662,0 |
| **2.İctimaiyyətlə əlaqədar və seçkilərin keçirilməsinə çəkilən xərclər** | | |
| -seçkilərə çəkilən xərclər | 0,0 | 0,0 |
| **3.Fərdi xərclər** | | |
| -ezamiyyə xərcləri | 0,0 | 498,0 |
| **4.Sair xərclər** | | |

| | | |
|---|---|---|
| -sosial yardım | 1700,0 | 1200,0 |
| **5.Aşağı təşkilatlara ödəniş** | 6620,0 | 380,0 |
| -cərimələr | 0,0 | 0,0 |
| -fiziki şəxsə verilmişyardım | 0,0 | 0,0 |
| **Y E K U N U** | **97942,72** | **98214,29** |

**Millət Vəkili :**
**Vəhdət Partiyanın Sədri:** **Kərimli Tahir Zayıdağa**

**Baş mühasib:** **Heydərova Rəhimə Xəlil**

**"12" fevral 2018-cı il**